# Ruhun müqəddəs sevgiyə qovuşduğu gün



**Bir çox müsəlman ölkələrində olduğu kimi, Azərbaycanda da hər il Qurban bayramı böyük sevinc və yüksək əhval-ruhiyyə ilə keçirilir, Allah yolunda qurbanlar kəsilir, dualar edilir, bayramlaşırlar. Hər addımda sevincin, mərhəmətin, paylaşmanın xoş sədası eşidilir.**

Qurban bayramı - sevginin, paylaşmanın və fədakarlığın rəmzidir. Bu bayram, insanın məhəbbətini, sadiqliyini göstərmək üçün mühüm məqamlardan biridir. Hər il bu bayramda günəşin nuruyla birlikdə ürəklər də işıqlanır, insanlar bir-birinə sevgi və hörmətlə yanaşırlar. Bayramın ruhu qurban verməkdədir - nəfsimizi, arzularımızı Allaha hədiyyə etməklə bərabər, ehtiyacı olanla paylaşmaqda, əl uzatmaqda təcəssüm tapır. İnsanın səmimi və saf qurbanlığı onun daxili təmizliyini, mərhəmətini əks etdirir. O, həm də xatırladır ki, həyatda ən böyük sərvət paylaşmaqdır.

Bayram günlərində süfrələr bərəkətlə dolur, ailələr, dostlar bir araya gəlir. Hər kəsin gözü xoşbəxtliklə parıldayır, hər ürəkdə bir alov yanır. İnsanın özünü, ailəsini, cəmiyyəti daha da möhkəm bağlarla birləşdirdiyi, sevgi və xeyirxahlığın dilə gəldiyi müqəddəs bayramdır. Bu gündə ulduzlar altında dualar yüksəlir, açılan qollar insanlığa sarılır. Süfrələrdə bərəkət, qəlblərdə sülh hökm sürür. Bayramın saf niyyəti ürəkləri isidir, könüllərdə bir işıq yanır, o işıq ki, ən dərin qaranlıqları belə aydınladır. Bu günlərdə hər bir kəs bağışlamağa, kömək etməyə hazır olur.

Bayramın əsas məqsədlərindən biri imkansız insanlara bayram günlərində sevinc yaşatmaq, onlara bayram əhval-ruhiyyəsi bəxş etmək, imkansız insanlara cəmiyyətin bütövlüyünü, həmrəyliyini, yanında olduğunu hiss etdirməkdir.

Qurban bayramının əsas ənənələrindən biri də bayram günü qurban kəsilməsidir. İslama görə Qurban payı 3 yerə bölünməlidir. Payın biri qohumlara, biri qonşulara verilməli, digərini isə ev sahibi özünə saxlamalıdır. Yəni Qurban yalnız ailə üzvlərinin bir yerə toplaşmasından ibarət deyil. Bayram digər insanlara sevinc bəxş etdikdə öz məqsəd və məramına çatmış olur. Bu baxımdan imkanı olan hər bir müsəlman qurban kəsməli, imkansız insanlara paylamalı, onları sevindirməlidir.

Qeyd edək ki, İslamda iki əsas bayram var. Biri Ramazan, digəri Qurban bayramıdır. İslam ənənələrinə görə bu bayramlarda böyüklər ziyarət olunmalıdır.

Bəli, Qurban bayramı hər il ölkəmizdə yüksək əhval-ruhiyyədə qeyd olunur. Möhtərəm Prezidentimiz İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva xalqı təbrik edir. Bu, ölkəmizdə milli-mənəvi dəyərlərimizə göstərilən diqqət və qayğının bariz təzahürüdür.

**Nurəngiz ADİLQIZI,**
**"Respublika".**




Respublika .- 2025.- 6 iyun (№ 117).- S.11.